İPƏK YOLU, No.4, 2023, səh.13-22
DOI: 10.30546/1810-911X.2023.4.13

# AZƏRBAYCANDA LOGİSTİKA SEKTORU VƏ PROBLEMLƏRİ

**Tovuz Daşdəmirova**

Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan
e-mail: tdasdemirova@list.ru

**Xülasə**. Tədqiqatın məqsədi Azərbaycanın logistika sektorunun mövcud vəziyyətini araşdırmaq və problemləri üzə çıxarmaqdır. Logistika Performans İndeksindən istifadə edilərək Azərbaycanda logistika sektorunun vəziyyəti qiymətləndirilir.

**Açar sözlər**: Logistika, tədarük zənciri, logistik mərkəz, logistik performans indeksi.

**LOGISTICS SECTOR AND PROBLEMS IN AZERBAIJAN**

**Tovuz Dashdemirova**
*Baku State University, Baku, Azerbaijan*

**Abstract**. The purpose of the study is to investigate the current situation of the logistics sector of Azerbaijan and reveal the problems. The situation of the logistics sector in Azerbaijan is evaluated using the Logistics Performance Index.
**Keywords**: Logistics, supply chain, logistics center, logistics performance index.

**ЛОГИСТИЧЕСКИЙ СЕКТОР И ПРОБЛЕМЫ В АЗЕРБАЙДЖАНЕ**

**Товуз Дашдамирова**
*Бакинский Государственный Университет, Баку, Азербайджан*

**Резюме.** Цель исследования - изучить текущую ситуацию в логистическом секторе Азербайджана и выявить проблемы. Ситуация в сфере логистики в Азербайджане оценивается с использованием индекса эффективности логистики.
**Ключевые слова:** Логистика, цепь поставок, логистический центр, индекс эффективности логистики.

## 1. Giriş

Ümumdünya ticarəti inkişaf etdikcə logistika sektoru da inkişaf edir. Logistikanın müasir qloballaşmanın hökm sürdüyü dünyada rolu əhəmiyyətli şəkildə artmışdır. XXI əsrdə bir-birindən təcrid olunmuş və inteqrasiya olunmamış logistika və təchizat zəncirinin idarə edilməsi olmadan müxtəlif nəqliyyat növlərinin müstəqil inkişafı, xüsusən də regional mərkəzə çevrilmək istəyən ölkələr üçün real deyil. Bunun önəmini dərk edən Azərbaycan da müstəqillik əldə etdikdən sonra digər sahələrdə olduğu kimi logistika sektoruna da diqqət yetirilmiş və sahənin mövcud problemləri araşdırılmışdır.

## 2. Azərbaycanda logistika sektoru və problemləri

Logistika sözü yunanca "hesablama elmi" və ya "hesablama bacarığı" mənasını verən "Logosticos" sözündən götürülmüşdür. Bu anlayış ilk dəfə hərbi sahədə istifadə edilmişdir. Hərbi mənada logistika anlayışı hərbi bazaları lazımi təchizat və dəstək xidmətləri ilə təmin etmək üçün həyata keçirilən fəaliyyətlər deməkdir. Logistika məhsulu və ya xidməti lazımi şəraitdə, lazımi həcmdə, doğru yerə, doğru zamanda, doğru istehlakçıya və düzgün qiymətə

təklif etməkdir. Burada əsas olan müştərilərin məmnuniyyəti və əməliyyatların bütün mərhələlərində maksimum şəkildə keyfiyyətin təmin edilməsidir. Ticarətin düzgün şəkildə davamı, onun inkişafı logistikadan birbaşa asılıdır.

Avropa Logistika Birliyinin göstərdiyi tərifə görə, logistika müəyyən məqsədlərə nail olmaq üçün mütəşəkkil bir sistem daxilində bu cür fəaliyyətlərlə və yerləşdirmələrlə əlaqəli insanların və ya materialların və dəstək fəaliyyətlərinin və yerləşdirilməsinin planlaşdırılması, həyata keçirilməsi və nəzarət edilməsidir.

Təchizat Zənciri İdarəetmə Peşəkarları Şurası tərəfindən müəyyən edilən tərifə görə, logistika müştərinin ehtiyaclarına uyğun olaraq bütün məhsul və məlumatların, o cümlədən xidmətlərin mənşə nöqtəsindən təyinat yerinə qədər səmərəli və effektiv daşınması və saxlanması üçün zəruri prossedurların planlaşdırılması, həyata keçirilməsi və yoxlanılması prosesidir. Logistika özü yarımbölmələrə ayrılır. Bunlardan anbar, biznes, paylama, tədarük, hərbi, şəhər, ekoloji, informasiya, satış, kompleks, qənaət, nəqliyyat logistikasını göstərə bilərik [2].

Tədarük zənciri anlayışı hansısa bir əmtəəni və ya xidməti tədarükçüdən istehlakçıya çatdırmaq üçün istifadə olunan sistemdir. Bu sistemə insanlar, təşkilatlar, texnologiyalar, müxtəlif fəaliyyətlər daxildir. Başqa sözlə desək, tədarük zənciri prosesi daxilində xammallar tələbə uyğun olaraq hazır məhsula çevrilərək istehlakçıya çatdırılır. Çoxlu sayda müəssisəni və işçini birləşdirən tədarük zəncirinin bütün halqalarında maddi itkilərin olmamasına, keyfiyyətin yüksək olmasına, malların zədələnməməsinə fikir vermək lazımdır. Son illərdə isə texnologiyanın inkişafı nəticəsində elektron ticarətin artması, əmtəələrin daha effektiv şəkildə ünvanlara çatdırılması səbəbindən müəssisələrin çoxu digər müəssisələrlə tədarük zənciri vasitəsilə bütünləşir [6].

Logistika fəaliyyətini aşağıdakı kimi göstərə bilərik:

Daşıma və paylanma, müştəri xidmətləri, anbarlama, satın alma və tədarük, qablaşdırma, tələbin planlanması, gömrük xidmətləri, materialın, sifarişlərin idarəolunması, satış sonrası xidmətlər.

Logistika sahəsində mühüm anlayışlardan biri də logistika idarəetməsidir. Bu anlayışın əhəmiyyəti, xüsusilə də şirkətlərin beynəlxalq sferaya çıxmaqla dünya bazarında yer almaları ilə artmışdır. Təchizat Zəncirinin İdarə Edilməsi Mütəxəssisləri Şurası logistikanın idarə edilməsini (menecmentini) mənşə nöqtələri arasında məhsulların, xidmətlərin və əlaqəli məlumatların axını kimi müəyyən edir. Necə ki damarlar insan orqanizmində mühüm rol oynayır, eləcə də logistika idarəetməsi ölkənin rəqabət qabiliyyətinin artırılmasında əhəmiyyətlidir.

Logistika mərkəzləri müxtəlif logistik proseslərin və funksiyaların yerinə yetirildiyi, mal və xidmətlərin istehsalı istisna olmaqla, onlarla əlaqəli bütün xidmət proseslərini özündə cəmləşdirən böyük ərazilərdir. Nəqliyyat şirkətləri, yükgöndərənlər, logistika mərkəzlərində gömrük əməliyyatları, müstəqil müəssisələr və qurumlar kimi nəqliyyat funksiyaları da daxil

olmaqla saxlama, texniki xidmət və təmir kimi dəstək xidmətlərinin göstərildiyi sahələr də adlanır. Logistika mərkəzləri ölkə daxilində, regional və beynəlxalq səviyyədə bir çox üstünlüklər təqdim edir. Bunlardan göstərə bilərik:

1. Çəkilən xərclərin azalmasına səbəb olur: Belə ki, müəssisələrin investisiya xərcləri, daşınma, anbar və saxlama xərcləri, ümumi məsrəflər azalır.

2. Xidmət keyfiyyətinin yüksəldilməsinə şərait yaradır: Lazımi infrastrukturun yaradılması intermodal daşımalar üçün imkanlar yaradır, texnologiyanın tətbiqi ilə sürət və səmərəlilik artırılır, inteqrasiya olunmuş iş prosesi sayəsində tələb olunan iş azalır, əlavə xidmətlər təmin edilir.

3. Logistika mərkəzləri sosial cəhətdən faydalıdırlar. İlk növbədə, böyük şəhərlərdə nəqliyyat sıxlığını azaldıb ətraf mühitin qorunmasına kömək etdiyini göstərə bilərik. Bundan əlavə, logistika mərkəzləri yaradıldıqları regionların kommersiya potensialına və iqtisadi inkişafına böyük töhfə verir. Bölgədə bizneslə məşğul olan müəssisələrin rəqabət qabiliyyətini artırıb, milli və beynəlxalq bazarlarda rəqabət üstünlüklərini yaratmağa kömək edirlər.

Qloballaşmanın təsiri və dünyada getdikcə mürəkkəbləşən inkişafların təsiri ilə gündən-günə dəyişən rəqabət mühitindəki dəyişikliklər logistika sektorunu təsiri altına alır. Qloballaşmanın təbii nəticəsi olaraq milli sərhədlərin yox olması ilə Amerika qitəsindəki bir şirkət Afrikadakı təchizatçı ilə iş aparır və mal və xidmətlərini Amerika və Afrikadan başqa bir qitədə satır.

Azərbaycan çox mühüm geosiyasi ticarət kəsişməsində yerləşir. Ölkə Şimal-Cənub və Şərq-Qərb ticarət yolunun üzərində yerləşir. Bundan əlavə, ölkənin neft və təbii qaz istehsalçısı olması sözügedən ölkənin dünyada əhəmiyyətini artırır. Bu səbəbdən ölkədə logistika sektorunun inkişafı və bu sektora böyük investisiyaların yatırılması qaçılmazdır. Sovet dövründən sonra Azərbaycanda logistika infrastrukturu köhnəlib və xeyli dərəcədə yararsız hala düşüb. Lakin dövlət investisiyası ilə bütün ölkə üzrə infrastruktur layihəsi başa çatdırılıb və sektorun inkişafı üçün araşdırmalar aparılıb. Yeni beynəlxalq avtomobil yolları, dəmir yolları, hava yolları və limanlar yaradılıb və yeni layihələr davam edir. Azərbaycan iqtisadiyyatında logistikanın rolu 5 əsas faktorla müəyyənləşir. Bunlar aşağıdakılardır: Təşkilati – iqtisadi, iqtisadi, texniki,informasiya, spesifik amillər [2].

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi”ndə göstərilir ki, ölkədə logistika sektorunun inkişafına səbəb olacaq faktorlar və bu sahənin zəif tərəfləri var. Belə ki, qanunvericilikdə logistika və ticarət sahəsinə aid yeni güzəşt mexanizmlərinin işlənib hazırlanması, digər ölkələrlə nəqliyyat sahəsində əlaqələrin qurulması, yeni liman kompleksinin tikilməsi logistika sahəsinin inkişaf etdirilməsinin güclü tərəfləridir. İnkişafın zəif tərəflərinə gəldikdə isə maliyyə vəsaitinin azlığı, ixtisaslı kadrların azlığı, müasir biznes modelinin müəssisələrdə tam şəkildə qurula bilməməsi, innovasiya fəaliyyətinin azlığı, əmək məhsuldarlığının aşağı olması, Xəzər dənizinin dərinliyinin az olması, küləkli günlərin

çoxluğu, gəmilərin yükgötürmə imkanlarının azlığını göstərə bilərik. Ölkəmizdə logistika sahəsinin inkişaf etdirilməsi üçün olan imkanlardan aşağıdakıları göstərə bilərik:

- Bəhs edilən Strateji Xəritə də daxil olmaqla dövlət tərəfindən logistika sahəsində qanunvericiliyin tənzimlənməsi və dövlət dəstəyinin artması;
- Xarici investorların cəlb edilməsinin artması imkanları;
- İri regional bazarlara olan yaxınlıq;
- Ələt qəsəbəsində yerləşən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı ərazisində azad iqtisadi zonanın və Heydər Əliyev Beynəlxalq Aeroportu ərazisində logistika qovşağının yaradılması;
- Potensial gənc nəslin, yəni insan resurslarının olması;
- Ölkənin yerləşdiyi əlverişli coğrafi mövqe;
- Sahibkarlıq fəaliyyəti sahəsində infrastrukturun təkmilləşdirilməsi.

Logistika sahəsində olan təhlükələr aşağıdakılardır:

- Neft sektorunda neftin qiymətinin kəskin azalmaları və nəticədə investisiya fəalllığının zəifləyə biləcəyi ehtimalı;
- Ətraf mühitlə bağlı tələblərin artması;
- Valyuta məzənnəsinin sabit olmaması;
- İnfrastruktur layihələrinin tikintisində gecikmələrin olması [1].

Logistika xidmətlərinin keyfiyyətinin qiymətləndirilməsi, səmərəlilik baxımından istifadə olunan resursların nəticələri, müştərilərin aldıqları xidmət haqqında təsəvvürləri və ya məhsul və ya xidmətin çatdırılması zamanı təcrübələr və s. bütün mərhələlərdə performansın ölçülməsi müvəffəqiyyətin müəyyən edilməsi üçün böyük əhəmiyyət kəsb edir. Performansın ölçülməsi həm korporativ firmaların, həm də ölkənin ümumilikdə rəqabətli bazarda yerini müəyyən etmək üçün bir zərurətdir. Performansın ölçülməsinin səbəbi görülən işin səmərəliliyini və keyfiyyətini ölçməkdir ki, bu da logistika sahəsində öz bacarıqlarını inkişaf etdirmək şirkətlərə rəqiblərindən üstün olmağa imkan verir.

Əsas logistik fəaliyyətləri ölçmək üçün bəzi performans göstəriciləri mövcuddur ki, bunlar daşınma, ödəniş sistemləri, yüklərin konsolidasiyası, saxlanması, ölkə daxilində gömrük qapılarının paylanması kimi bir çox meyarları əhatə edir. Ona görə də bir ölkənin logistika göstəricilərini yalnız bir göstərici ilə ölçməyə çalışmaq çox çətindir. Ölkələrin öz aralarında rəqabət qabiliyyətini ölçmək üçün logistika islahat proqramları hazırlamağa çalışan Dünya Bankı biznes mütəxəssisləri və akademik tərəfdaşlarla birlikdə Logistika Performans İndeksini yaratmışdır. Logistics Performance Indeksinin məqsədi ölkələr arasında rəqabət ölçüsünü aşkar etməkdir. Logistika Performans İndeksini və onun alt göstəricilərini sistematik olaraq ölçərkən dünyanın bir çox yerlərindən logistika sektorunda çalışan yüksək səviyyəli rəhbərlərin təcrübə və bilikləri əsasında hazırlanmış sorğulardan istifadə olunub. Ölkələrin Logistika Performans İndeksi ilk dəfə 2007-ci ildə ölçüldü. Daha sonra 2010-2012-2014-2016-2018-2023-cü illərdə

LPİ hesabatını təqdim etmişdir. Ölçmə zamanı yeddi sahə müəyyən edilmişdir. Bunlar aşağıdakılardır:

1. Gömrük və digər sərhəd orqanları tərəfindən aparılan əməliyyatların səmərəliliyi;
2. Nəqliyyat və informasiya texnologiyaları infrastrukturunun logistik keyfiyyəti;
3. Beynəlxalq daşımaların təşkilinin rahatlığı və maliyəsinə uyğunluq səviyyəsi;
4. Yerli logistika sənayesinin vəziyyəti;
5. Beynəlxalq göndərişləri izləmək bacarığı;
6. Daxili logistika xərcləri;
7. Yüklərin təyinat yerinə vaxtında çatdırılması.

Bu sahələr Logistik Performans Indeksinin giriş və çıxış komponentlərini göstərir. Bu komponentlər arasında gömrük, infrastruktur, logistika keyfiyyəti və səriştəlilik girişlər bölməsinə daxildir; planlaşdırma, beynəlxalq daşımalar, izləmə və monitorinq isə çıxışlar bölməsinə daxildir. Giriş hissəsindəki komponentlərə çıxış nöqtəsində yaxşı nəticələr əldə etməyə imkan verən hökumətlər tərəfindən həyata keçirilən siyasət tədbirləri daxildir. Başqa sözlə, daxilolmalarda edilən hər bir təkmilləşdirmə nəticələrdə öz əksini tapacaq ki, bu da ölkənin ümumi logistika göstəricilərinə təsir edəcək və onun tərəqqisinə şərait yaradacaq. Logistika Performans İndeksinin və alt meyarların ölçülməsində 1 ən aşağı, 5 isə ən yüksək bal olan şkaladan istifadə edilmişdir. Ölkələr üçün elan edilən Logistic Performance Index dəyərləri qeyd olunan alt meyarların orta çəkili qiyməti alınmaqla hesablanır [3].

*Dünya bankının hesabatı*

Aşağıdakı cədvəldə dünyanın bəzi ölkələrinin illər üzrə logistik performans indeksləri verilmişdir [7].

**Cədvəl 1.** Dünya ölkələrinin logistik performans indeksi

| | 2007 | 2010 | 2012 | 2014 | 2016 | 2018 | 2023 |
|---|---|---|---|---|---|---|---|
| Sinqapur | 4,19 | 4,09 | 4,13 | 4 | 4,14 | 4 | 4,3 |
| Niderland | 4,18 | 4,07 | 4,02 | 4,05 | 4,19 | 4,02, | 4,1 |
| Almaniya | 4,1 | 4,11 | 4,03 | 4,12 | 4,23 | 4,2 | 4,1 |
| İsveç | 4,08 | 4,08 | 3,85 | 3,96 | 4,2 | 4,05 | 4 |
| Avstriya | 4,06 | 3,76 | 3,89 | 3,65 | 4,1 | 4,03 | 4 |
| Lüksemburq | 3,54 | 3,98 | 3,82 | 3,95 | 4,22 | 3,63 | 3,6 |
| Böyük Britaniya | 3,99 | 3,95 | 3,9 | 4,01 | 4,07 | 3,99 | 3,7 |
| Yaponiya | 4,02 | 3,97 | 3,93 | 3,91 | 3,97 | 4,03 | 3,9 |
| Belçika | 3,89 | 3,94 | 3,98 | 4,04 | 4,11 | 4,04 | 4 |
| ABŞ | 3,84 | 3,86 | 3,93 | 3,92 | 3,99 | 3,89 | 3,8 |

**Mənbə:** Dünya bankının məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Cədvəldən görünür ki, yüksək göstəricilər əsasən Avropa olmaqla İnkişaf etmiş ölkələrə aiddir. Verilən rəqəmlər dünya üzrə ən yüksək LPİ rəqəmləridir. Göstəricilər müxtəlif illərdə enib-qalxıb dəyişiklik göstərsələr də, ilk beşliyə adətən cədvəldə verilən ölkələr aid olmuşdur. Ən aşağı göstəricilər isə zəif inkişaf etmiş ölkələrə aiddir.

**Diaqram 1.** Dünya ölkələrinin logistik performans indeksi




**Mənbə:** Dünya bankının məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Azərbaycanın Logistik performans indeksi 2014-cü il hesabatından sonrakı illərdə yer almamışdır. Ona görə də 2014-cü ilə qədər olan göstəricilərlə tanış olaq [7].

**Cədvəl 2.** Azərbaycanın Logistik performans indeksi

| Azərbaycan | **2010** | **2012** | **2014** |
|---|---|---|---|
| Logistik performans indeksi | 2,64 | 2,48 | 2,45 |
| Dünya ölkələri üzrə tutduğu yer | 89 | 116 | 125 |
| Gömrük | 2,14 | 1,92 | 2,57 |
| İnfrastruktur | 2,23 | 2,42 | 2,71 |
| Beynəlxalq daşımalar | 3,05 | 2,43, | 2,57 |
| Logistikanın keyfiyyəti və səriştəsi | 2,48 | 2,14 | 2,14 |
| İzləmə | 2,65 | 2,75 | 2,14 |
| Vaxtlılıq | 3,15 | 3,23 | 2,57 |

**Mənbə:** Cədvəl Dünya bankının məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Maksimum LPİ-i 2010-cu ildə olmuşdur. Sonrakı illərdə logistika sektoru zəifləmişdir.

Azərbaycanda olan logistik mərkəzlər Abşeron Logistika Mərkəzi, Meyvəli Logistika Mərkəzi, Bakı Logistika Mərkəzidir. 2008-ci ildə əsası qoyulan Meyvəli Logistika Mərkəzinin əsas fəaliyyət istiqaməti meyvə və tərəvəzlərin pərakəndə və topdan satışının təşkil edilməsidir. Yaranmasında əsas məqsəd əhalinin tələbatlarının qarşılanması, yerli fermerlərin istehsalı olan kənd təsərrüfatı məhsullarının bazara çıxışının asanlaşdırılmasıdır. Şəhər kənarında yerləşməsi respublikanın hər yerindən gətirilən məhsulların paytaxta rahat çatdırılmasına şərait yaradır. Həmçinin Mərkəz əhalinin istifadəsinə soyuducu anbarları da verir. Logistika Mərkəzinin

göstərdiyi xidmətlər aşağıdakılardır: maşın yuma, yük daşıma, yanacaq doldurma məntəqəsi, restoran, tibb məntəqəsi, polis məntəqəsi, supermarket, valyuta dəyişmə məntəqəsi.

Bakı Logistika Mərkəzinin yaradılmasında əsas məqsəd məşğulluğa, iqtisadi artıma dəstək olmaq, rəqabətqabiliyyətliliyi və gəlirliliyi təmin etməkdir. Əsas hədəfləri ən böyük logistik mərkəzə çevrilmək, bölgələrdə saxlama terminalları şəbəkəsi yaratmaq, ən çox inteqrasiya olmuş təchizat zənciri xidmətləri göstərən logistik şirkətə çevrilməkdir. Mərkəzin göstədiyi xidmətlər aşağıdakılardır:

Keyfiyyətli anbarlama, daşınmanın planlanması və idarə edilməsi, əlavə dəyər yaradan xidmətlər, tədarük zəncirinin idarə olunması, keyfiyyətə nəzarətin təmin olunması, logistik idarəetmə, tərsinə logistika, çatdırma və daşıma.

Azərbaycanda ilk özəl logistik mərkəz olan Abşeron Logistika Mərkəzi beynəlxalq standartlara, beynəlxalq sertifikata malik olub Böyük İpək yolunun mərkəzində yerləşir. 13 avqust 2018-ci ildən Lökbatan qəsəbəsində fəaliyyətə başlayan mərkəz imkan verir ki, terminaldan əsas yol nəqliyyat marşrutlarına birbaşa keçid edilsin və hədəfə daha tez çatılsın. Güclü infrastruktur qurğuları, yüksək xidmət keyfiyyəti, müasir texnologiyalarla zəngin əməliyyat qabiliyyəti ilə təchiz edilmiş mərkəzdə tranzit gömrük əməliyyatları orada yerləşən gömrük orqanları tərəfindən həyata keçirilir. Logistik mərkəzdə "bir pəncərə" sistemi ilə xidmət göstərilir və bununla da vaxta qənaət edilərək xərclər azaldılır. Göstərilən əsas xidmətlərə vaqon, konteyner, gömrük, terminal, broker, saxlanma, nəqliyyat, ofis icarəsi və 3 PL xidmətləri aiddir.




**Şəkil 1.** Mərkəzin xidmətləri

Əsas fəaliyyət avtomatlaşdırılmış proqram təminatı vasitəsi ilə vaqon konteynerlərin qəbulu proseslərindən başlayaraq yüklərin ünvana çatdırılmasına qədər davam edir. Mövcud proqam təminatı eyni zamanda həm Dövlət Gömrük Komitəsi, həm də Azərbaycan Dəmir Yolları tərəfindən qarşılıqlı məlumat mübadiləsini təmin edir. Daşıma marşrutu Asiya, Avropa, Yaxın Şərq, Uzaq Şərq, Amerika və MDB ölkələri olmaqla dünyanın dörd bir yanını əhatə edir. Mərkəzin imkanlarını rəqəmlərlə ifadə etsək, belə bir tablo ortaya çıxmış olar:

- Sutkada 30000 ton, ildə 11 mln. ton iri həcmli yükaşırma qabiliyyətinə malik;

- Ay ərzində 10000 TEU konteyner, 8000 vaqon qəbuletmə və yükləmə-boşaltma gücünə malik;
- Bakı və Abşeron ərazisi üzrə dəmir yolu yükünü tam qarşılama qabiliyyəti;
- Ümumilikdə isə 7500 TEU konteyner, 1000 ədəd vaqon tutumuna malik mərkəz [5].




**Diaqram 2.** 2022-ci il üçün Abşeron Logistika Mərkəzində aid statistik göstəricilər

**Mənbə:** Diaqram Abşeron Logistika Mərkəzinin göstəriciləri əsasında müəllifin özü tərəfindən qurulmuşdur

İqtisadiyyatın ayrı-ayrı sektorlarında mövcud olan ağır vəziyyət və geriliklər, cəmiyyətdə olan sosial gərginlik, sahibkarlıq mühitində olan çətinliklər, yeni logistik ideyalara sahib menecerlərin azlığı logistika sahəsində olan problemlərdəndir. Ümumilikdə isə Azərbaycanda logistika sektorunda mövcud olan problemlər aşağıdakılardır:

- ❖ Anbarlama zamanı qarşılaşılan problemlər;
- ❖ Müştərilərə xidmət zamanı baş verən problemlər;
- ❖ Gömrükləmə fəaliyyətində baş verən problemlər;
- ❖ Satın alma zamanı baş verən problemlər;
- ❖ Handling və qablaşdırma zamanı olan problemlər;
- ❖ Əsas problemlərdən olan savadlı, ixtisaslı kadr çatışmazlığı;
- ❖ Məlumatlandırmanın zəif olması;
- ❖ Xarici mütəxəssislərlə mütəmadi əlaqələrin qurulmaması;
- ❖ Logistik infrastrukturun lazımi səviyyəyə hələ ki çatmamağı;
- ❖ Rəqabətin zəif olması.

Problemlərin həlli kimi göstərə bilərik ki, yeni logistik mərkəzlər yaradılaraq rəqabət artırıla bilər, xaricdən mütəxəssislər dəvət edilərək təlimlər keçirilə bilər, firmalarla universitetlər, logistik mərkəzlər qarşılıqlı əlaqədə olmalı, bunun nəticəsində ixtisaslı kadrların

sayı artmış olar, marketinq fəaliyyəti daha məqsədəuyğun şəkildə həyata keçirilə bilər, xarici firmalar ölkəyə dəvət edilə bilər, mərkəzlərdə innovativ avadanlıqlardan daha çox istifadə edilə bilər.

**Nəticə.** Azərbaycanda logistika sektoru hələ başlanğıc mərhələsindədir, lakin böyük potensiala malikdir. Logistika anlayışı Azərbaycan üçün nisbətən yenidir və insanların çoxu, o cümlədən dövlət məmurları və sıravi iş adamları bunun tam olaraq nə olduğunu tam başa düşmürlər. Çoxları üçün logistika mərkəzi yeganə məqsədi mal saxlamaq olan anbardan başqa bir şey deyil. Bu səbəblərdən indiki logistika bazarı kiçikdir.

Logistika sahəsində əməliyyatları təkmilləşdirmək lazımdır: bu əməliyyatlara avtomobil daşımalarının infrastrukturu ilə bağlı əlavə tədbirlərin görülməsi, logistika və ticarət sahəsində xarici mütəxəssislərlə əməkdaşlıq, bu sahələrdə olan çatışmazlıqların aşkar edilməsi və həlli yollarının tapılması, nəqliyyat vasitələrinin daşımalarının təkmilləşdirilməsi daxildir.

Tranzit ticarətdən yüksək mənfəət əldə olunması üçün aşağıdakı məsələlər həllini tapmalıdır:

1. Bakı regional ticarət qovşağına çevrilməlidir: Şəhərin regional ticarət mərkəzinə çevrilməsi üçün ən vacib məqam Ələt layihəsidir. Ona görə də Ələtdə azad ticarət zonasının hüquqi infrastrukturunun hazırlanması, hədəflərin və əsas fəaliyyət göstəricilərinin müəyyən edilməsi, xarici və yerli şirkətlərin iştirakı, özəl sektorun bütün xidmətlərdə iştirakı, insan kapitalının qiymətləndirilməsi və özəl investisiyaların ölkəyə gəlməsi üçün "pəncərə" sistemi tətbiq edilməlidir.

2. Ticarət yönümlü emal mərkəzləri yaradılsın: Ələt layihəsi mühüm regional ticarət qovşağı mövqeyinə çatdıqdan sonra kənd təsərrüfatı və neft-təbii qaz məhsullarının emalı mərkəzlərinin yaradılması mühüm əhəmiyyət kəsb edəcək.

3. Bakıda və ölkənin müxtəlif yerlərində logistika və ticarət mərkəzləri yaradılsın: bunun üçün münasib yerlərin təhlili və seçilməsi, layihələrdə özəl sektorun iştirakının təmin edilməsi, layihələrin reallaşdırılması mexanizminin müəyyən edilməsi, mərkəzlərin yaradılması və idarə olunması, yerli və xarici şirkətlərin dəyər təmin edən xidmətlərə dəvət edilməsi daha ixtisaslı və peşəkar idarəetmə strukturu gətirəcəyi üçün vacibdir.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi (2016).
2. Rzayev E., Fidan Y., Çetin S. (2022), Azerbaycan lojistik sektörünün genel durumu ve geliştirilebilecek alanlar. İstanbul Ticaret Üniversitesi Sosyal Bilimler Dergisi, Vol.21, No.45, 1581-1608.
3. Ünalan M., Yapraklı T.Ş. (2016), Küresel lojistik performans endeksi ve Türkiye'nin son 10 yıllık lojistik performansının analizi. Fırat Üniversitesi.
4. Imanov T.I. (2005), Logistikanın əsasları. Bakı, Tİ-Media, 473.
5. https://absheronport.az/az

6. https://avropa.info/post/395906
7. https://lpi.worldbank.org/
8. https://www.researchgate.net/